**Namizədliyi "Demokratik Qüvvələrin Milli Şurası" təşəbbüs qrupu tərəfindən irəli sürülmüş Cəmil Poladxan oğlu Həsənlinin 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizəd kimi qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2013-cü il oktyabrın 9-da keçiriləcək Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyi "Demokratik Qüvvələrin Milli Şurası" təşəbbüs qrupu tərəfindən irəli sürülmüş Cəmil Poladxan oğlu Həsənlinin namizədliyi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 17 avqust 2013-cü il tarixli 15/94 saylı qərarı ilə təsdiq edilmişdir.

Namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2013-cü il sentyabrın 8-də namizədin səlahiyyətli nümayəndəsi tərəfindən namizədin qeydə alınması üçün Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 100-cü, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4, 19.14, 28.2, 28.4, 58, 59, 60 və 182-ci maddələrinə əsasən **q ə r a r a  a l ı r :**

1. Namizədliyi "Demokratik Qüvvələrin Milli Şurası" təşəbbüs qrupu tərəfindən irəli sürülmüş Cəmil Poladxan oğlu Həsənli 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizəd kimi qeydə alınsın.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |